# QOCAMAN KİTABXANA

**_Artıq 116 yaşına qədəm qoyub. Bu illər ərzində nə qədər inkişaf edib, oxuculara mədəni xidmət göstərib. Yubileyi ərəfəsində burada əsaslı təmirə başlanılıb. Müəyyən abadlıq işləri aparılıb. İkinci mərtəbədə təmirdən sonra səliqə-sahman göz oxşayır. Bu işin birinci mərtəbədə davam etdirilməsi ilə kitabxanaya axın və marağı daha da gücləndirəcəkdir._**

Söhbət M.Seyidzadə adına mərkəzi şəhər uşaq kitabxanasından gedir. Müsahibimiz kitabxananın direktoru Rəhilə xanım Rzayevadır:

Kitabxanamız 1889-cu ildə Bakı Şəhər Duması tərəfindən yaradılmışdır. Əvvəllər yalnız ali çinovniklərə, şəhər idarəsinin qulluqçularına və onların uşaqlarına xidmət göstərmişdir. O vaxt kitabxana 2739 nüsxə kitab və qəzet fonduna malik olmuşdur. 1889-cu ildə şəhər dumasının qərarı ilə rus tənqidçisi V.Q.Belinskinin adını əbədiləşdirmək üçün kitabxanaya verilmişdir.

1917-ci ildə kitabxanada artıq 8557 nüsxə rus, 72 nüsxə isə xarici dildə kitab var idi. Oxucuların sayı 470 nəfərə çatdırılmışdır. 1918-ci ildə Bakı Xalq Maarif Şöbəsi yanında 226960 nüsxə kitab fonduna malik 38 kitabxana fəaliyyət göstərirdi. Bunlardan biri də Belinski kitabxanası idi ki, bu da o zaman "Belinski adına III sovet kitabxanası" adlanırdı. Fondda Azərbaycan dilində kitab olmadığına görə kitabxanadan əsasən oxuculara rus ədəbiyyatı ilə xidmət göstərilirdi.

Sonralar kitabxananın maliyyə çətinliklərini aradan qaldırmaq üçün kitabxana maarif komissarlığının tabeliyindən çıxarılıb mədəniyyət idarəsinə tabe edilmişdir. Mədəniyyət idarəsi tabeliyində kitabxana şəhərdə olan uşaq kitabxanalarına rəhbərlik edirdi. 1965-ci ildə kitabxanaya Mərkəzi Şəhər Uşaq kitabxanası statusu verilmişdir. Hazırda Bakı şəhərində olan 19 uşaq kitabxanasına metodiki rəhbərliyi kitabxanamız edir. Onların bütün işlərinin düzgün məqsədyönlü qurulmasında onun rolu əvəzsizdir.

İllər keçdikcə kitabxana inkişaf etmiş, zəngin kitab fondu yaradılmışdır. Bu gün oxuculara kitabxananın 7 şöbəsi xidmət göstərir: "Azərbaycan", "Kiçik yaşlılar", "Yuxarı yaşlılar", "Qiraət zalı", "İncəsənət", "Kitab komplektləşdirmə və kitab işləmə" və "Metodiki şöbə".

Hazırda kitabxanamızın 100000 nüsxədən çox kitab fondu vardır. İl ərzində mütəmadi 11000-12000 oxucuya xidmət göstərilir. Son illər respublikamız öz müstəqilliyini elan etdikdən sonra kitabxanamızda da nəzərə çarpacaq dəyişikliklər olmuşdur. Belə ki, kollektivin ümumi rəyinə əsasən 1991-ci ildə Nazirlər Kabinetinə kitabxananın adının dəyişdirilməsi barədə müraciət edilmişdir. 1991-ci il may ayında Nazirlər Kabinetinin qərarı ilə kitabxanaya görkəmli uşaq şairi Mirmehdi Seyidzadənin adı verilmişdir.

**Lalə Mustafayeva**